TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

______________ E.M.Ağayev

“12” fevral 2020-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**ÖSKÜRƏKƏLEYHİNƏ TABLETLƏR-TERNOFARM** tabletlər
COUGH TABLETS -TERNOPHARM

**Tərkibi**
*Təsiredici maddə:* 1 tabletin tərkibində narın toz şəklində 0,0067 q lansetşəkilli termopsisotu (*Herba Thermopsidis lanceolata*), 0,25 q natrium hidrokarbonat vardır.
*Köməkçi maddələr:*talk, kalsium stearat, kartof nişastası.

**Təsviri**
Yaşılımtıl-boz rəngli və ya sarı-qonur rəngli yastı silindrik formalı, üzərində bölmə xətti olan, iti kənarlı tabletlərdir. Çillərin olması yolverilәndir.

**Farmakoterapevtik qrupu**
Öskürək və soyuqdəymə xəstəlikləri zamanı istifadə edilən kombinəolunmuş preparatlar.
**ATC kodu:** R05X.

**Farmakoloji xüsusiyyətləri**
Termopsisotu bəlğəmgətirici təsirə malikdir, mədənin selikli qişasının reseptorlarına mülayim qıcıqlandırıcı təsir göstərməklə, reflektor olaraq bronxial vəzilərin sekresiyasını yüksəldir.
Termopsisotunun tərkibində olan alkaloidlər (sitizin, metilsitizin, paxikarpin, anagirin, termopsin, termopsidin) tənəffüs mərkəzinə, yüksək dozalarda isə qusma mərkəzinə oyadıcı təsir göstərir.
Natrium-karbonat bronxial vəzilərin sekresiyasını stimullaşdırır, bəlğəmin özlülüyünün azalmasına səbəb olur.

**İstifadəsinə göstərişlər**
Yuxarı tənəffüs yollarının çətin xaric olan bəlğəmli öskürəklə müşayiət olunan xəstəliklərinin (traxeit, bronxit) kompleks müalicəsində istifadə edilir.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq, mədə və onikibarmaq bağırsağın xora xəstəliyinin kəskinləşmə fazası, qanhayxırma.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Adsorbentlər, büzüşdürücü və bürüyücü vasitələr termopsisotunun tərkibində olan alkaloidlərin mədə-bağırsaq traktından sorulmasını azalda bilər. Preparatı tərkibində kodein olan və öskürəyi azaldan digər preparatlarla eyni vaxtda istifadə etmək olmaz.

Bəğəmin parçalanmasını və onun çıxarılmasını yaxşılaşdırmaq üçün çox miqdarda isti maye qəbul etmək məsləhət görülür.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə istifadəsi əks göstərişdir.

**Pediatriyada istifadəsi**
12 yaşa qədər uşaqlarda preparatın istifadəsi əks göstərişdir.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsirinə dair tədqiqat aparılmamışdır.

**İstifadə qaydası və dozası**
Böyüklərə preparat 3-5 gün ərzində, sutkada 3 dəfə 1 tablet təyin edilir.
12 yaşdan yuxarı uşaqlara 3-5 gün ərzində sutkada 3 dəfə ½ tablet təyin edilir.

**Əlavə təsirləri**
Preparata qarşı yüksək fərdi həssaslıq zamanı allergik reaksiyaların inkişafı, o cümlədən, hiperemiya, səpki, qaşınma və dərinin şişməsi mümkündür. Yüksək dozaların qəbulu zamanı qusma baş verə bilər.

**Doza həddinin aşılması**
Ürəkbulanma, qusma, zəiflik, diareya, başgicəllənmə, soyuq tər, avazıma, selikli qişaların göyərməsi, ağır zəhərlənmələr zamanı şüurun pozulması, oyanıqlıq, halüsinasiya, qıcolma mümkündür.
*Müalicəsi*
Mədənin yuyulması, duz tərkibli işlədicilər, aktivləşdirilmiş kömür, simptomatik terapiya.

**Buraxılış forması**
10 tablet, blisterdə. 1 blister, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, quru, işıqdan qorunan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
4 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
"Ternofarm" MMC.

**Ünvan**
Ukrayna, Ternopol ş., Fabriçnaya k., 4.
Tel.:/Faks: (0352) 521-444.
www.ternopharm.com